DOI: 10.36719/2020/REK/01/113-118

**Sevinc Usub qızı Hüseynova**
AMEA Hüquq və İnsan Haqları İnstitutu
sevhuseyn@yahoo.com

# CİNAYƏT MƏSULİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

***Açar sözlər:*** *hüquqi məsuliyyət, cinayət məsuliyyəti, cinayət tərkibi, cinayət məsuliyyətinin əsasları, cinayət məsuliyyətinin əlamətləri, cinayət məsuliyyətinin növləri, qanunvericilik, ictimai təhlükəlilik*
***Key words:*** *legal liability, criminal liability, crime, grounds for criminal liability, signs of criminal liability, types of criminal liability, legislation, public danger*
***Ключевые слова:*** *юридическая ответственность, уголовная ответственность, состав преступления, основание уголовной ответственности, признаки уголовной ответственности, виды уголовной ответственности, законодательство, общественная опасность*

## Giriş

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət hüquq normalarının sistemləşdirilmiş ifadəsidir. O iki hissədən ibarətdir: ümumi və xüsusi. Cinayət Məcəlləsinin ümumi hissəsinin maddələri təyinedici normalar olmaqla, cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, həmçinin cinayət məsuliyyətindən və cəzadan azad etmənin şərtlərini müəyyən edir və möhkəmləndirir. Beləliklə, obyektiv olaraq elə bir vəziyyət yaranır ki, qanunverici cinayət məsuliyyətinin əsasının aktuallığını anlayaraq, definitiv yox, mücərrəd xarakter daşıyan müvafiq cinayət-hüquqi normanı ifadə edir.

Qanunvericilik təcrübəsi bilavasitə cəmiyyətin və dövlətin demokratik institutlarının formalaşdırılmasını təmin edir, onlara hüquqi fəaliyyət rejimi verir ki, bu da cəmiyyət üçün əlçatan olan məhkəmə hakimiyyətini təmin edir. Bu zaman ictimai münasibətlərin cinayətkar qəsdlərdən qorunmasına yönəlmiş cinayət qanunlarının yaradılması ilə bağlı qanun yaradıcılığı da böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, müvafiq maraqların cinayət əməllərindən qorunması məsuliyyət təhlükəsi ilə, habelə onun təqsirli şəxslərin üzərinə qoyulması yolu ilə həyata keçirilir.

Qeyd edilənlər cinayət məsuliyyəti kateqoriyasına, onun məzmununa, növlərinə dair araşdırmalara ehtiyac olduğunu göstərir. Burada əsas rol cinayət məsuliyyətinin müəyyən edilməsinin üzərinə düşür. Cinayət məsuliyyəti anlayışının problemi, onun növləri və əsasları cinayət törətmiş vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini qanuni surətdə məhdudlaşdıran hissədə də aktualdır. Bu cinayət məsuliyyətinin müvafiq maraqları ictimai təhlükəli əməllərdən qorunmaq, bəşəriyyətin əmin-amanlığını və təhlükəsizliyini təmin etmək və cinayətin qarşısını almaq üçün zəruri və kifayət qədər olan əməllərin öz məzmunu ilə əhatə olunmasını nəzərdə tutur. Bu problem ədalət prinsipinin və ondan irəli gələn cinayət-hüquqi prinsiplərin həyata keçirilməsi üçün bilavasitə baza kimi çıxış edir. Bu, həmçinin cinayət hüququnun nəzəriyyəsi və qanunvericilik praktikası üçün xüsusilə xarakterikdir.

Cinayət məsuliyyətinə keçid almadan öncə qeyd edək ki, hüquqi məsuliyyət – hüququn tələblərini icra etməyə görə dövlət məcburiyyət tədbiridir. Yəni bu əslində dövlətin hüquqa zidd hərəkətlərə mənfi reaksiyasıdır.

Hüquq elmində hüquqi məsuliyyətə iki aspektdə yanaşılır: müsbət hüquqi məsuliyyət və mənfi hüququ məsuliyyət. Müsbət hüquqi məsuliyyət: cəmiyyət üçün müsbət, faydalı funksiya və sosial rolu həyata keçirmək üzrə hüquqi vəzifədən əmələ gəlir. Mənfi hüquqi məsuliyyət (retrospektiv) hüquq pozuntusu ilə əlaqədar əmələ gəlir və dövlət tərəfindən hüququ pozan şəxs barəsində (məhkəmə, prokurorluq, polis və s.) müvafiq sanksiyalar (azadlıqdan məhrumetmə, cərimə, zərərin ödənilməsi və s.) tətbiq edilməsi ilə bağlıdır.

Retrospektiv cinayət məsuliyyətinin məqsədlərinin xarakteri tamamilə cinayətin təbiətinə, ictimai həyatın gətirdiyi mənfi dəyişikliklərə bağlıdır. Cinayət nəticəsində ictimai əlaqələrin parçalanması, başqalarına ziyan vurma təhlükəsi yarandıqda, əxlaqi və siyasi zərər ictimai və fərdi ədalət duyğusuna səbəb olur. Retrospektiv cinayət məsuliyyətinin ümumi məqsədləri aşağıdakılardır: 1) cinayət qanunvericiliyi ilə qorunan və tənzimlənən ictimai əlaqələrin təşkili, quruluşu, təşkilatı, bərpası; 2) ictimai və fərdi şüurda mənəvi və siyasi zərərin kompensasiyası (1).

Hüquq normalarının pozulmasında təqsirli olan şəxslərə verilən dövlət öhdəlikləri hüquqi məsuliyyətin müxtəlif formalarında ifadə edilir. Buna görə də hüquqi məsuliyyətin dörd əsas növü fərqləndirilir: onlar hüquq pozuntusunun növlərindən asılı olaraq əmələ gəlir: cinayət məsuliyyəti, mülki məsuliyyət, inzibati məsuliyyət, intizam məsuliyyəti.

Qeyd olunduğu kimi, hüquq normalarının pozulmasında təqsirli olan şəxslərə tətbiq edilən dövlət məcburiyyəti hüquqi məsuliyyətin müxtəlif formalarında ifadə olunur. Onlardan biri də cinayət məsuliyyətidir. Hüquqi məsuliyyətin digər formalarından o ciddiliyi və sərtliyi ilə fərqlənir.

Tətbiq olunan cinayət qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti aşağıdakı növlərə bölünür: hökmlə əlaqəli olmayan cinayət məsuliyyəti; cəzanın tətbiqi ilə əlaqəli, lakin məhkəmənin hökmü qanuni qüvvəyə minən zaman icra olunmadan cinayət məsuliyyəti; şərti olaraq tam və ya qismən yerinə yetirilməyən hökmlə bağlı cinayət məsuliyyəti; tibbi xarakterli məcburi tədbirlər ilə əlaqədar cinayət məsuliyyəti; məcburi tərbiyə tədbirləri ilə əlaqədar cinayət məsuliyyəti; ölüm hökmü və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına əsasən cinayət tərkibi ilə əlaqəli cinayət məsuliyyəti.

Cinayət məsuliyyəti – hüquqi məsuliyyət növlərindən biri, törədilən cinayətin hüquqi nəticəsi kimi cəza formasında məcburiyyət tədbirlərinin tətbiqi ilə təqsirkarın mühakimə edilməsini nəzərdə tutur. Cinayət məsuliyyətinə cəlbetmə cinayət işi başlama, istintaq aparmaq və məhkəmə baxışı mərhələlərindən ibarətdir. Cinayətin törədilməsi ədalət mühakiməsini həyata keçirən dövlət və təqsirli şəxs arasında spesifik hüquqi münasibətlər əmələ gətirən hüququ faktdır. Məzmununa görə bu hüquq münasibətləri dövlət tərəfindən onun hüquq-mühafizə orqanlarının cinayəti tədqiq etmək vəzifəsində və konkret şəxsin təqsirini sübut edən kifayət qədər əsaslar olduqda onu cinayət məsuliyyətinə cəlbetmə hüququnda ifadə olunur. Cinayət etmiş şəxs üçün bir tərəfdən cinayət məsuliyyəti daşımaq vəzifəsi, digər tərəfdən isə qanunla yalnız həmin növ əməllərə görə müəyyən edilmiş sanksiya hədlərində cəzalandırılmasını tələb etmək hüququ əmələ gəlir. Cinayətə hazırlıq, cinayətə qəsd, cinayətdə iştirakçılığa görə də cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasına (maddə 25) görə hamı qanun və məhkəmə qarşısında bərabərdir. Cinayət hüquq sahəsində bu o deməkdir ki, təqsirli şəxslər eyni əməllərə görə eyni məsuliyyət daşımalıdır. Yalnız qanunda nəzərdə tutulan hallarda və cəzanı fərdiləşdirmə məqsədilə bu prinsipin pozulmasına yol verilir. Cinayət məsuliyyəti ümumi xarakter daşıyır. Bu, o deməkdir ki, yalnız bir subyekt – dövlət və daha konkret olaraq, dövlətin yalnız bir orqanı – məhkəmə cinayət məsuliyyətinə cəlb etmək və onu tətbiq etmək səlahiyyətinə malikdir.

Yalnız faktiki olaraq baş vermiş hüquqazidd əmələ görə məsuliyyətə cəlbetmə prinsipi ancaq təqsirli şəxslərin məsuliyyətə cəlb olunması prinsipi ilə tamamlanır. Azərbaycan Respublikasının Konstitusiyasına (maddə 63) əsasən hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır (2).

Cinayət məsuliyyəti şəxsi xarakter daşıyır, yəni konkret cinayəti yalnız şəxsin özü törədən, yaxud onun törədilməsində iştirak edən şəxs məsuliyyətə cəlb olunur. Bu o deməkdir ki, heç bir şəxs kollektiv məsuliyyət prinsipinə görə, yaxud da təqsirli şəxslə yaxın qohumluq əlaqəsində və s. əlaqədə olmağa görə məsuliyyətə cəlb edilə bilməz. Cinayət məsuliyyəti cəmiyyət üçün daha təhlükəli olan əməllərə – cinayətlərə görə müəyyən edilir. Cinayət məsuliyyətinə cəlb edilən və barəsində cəza tətbiq edilən şəxs cəzanı çəkib qurtardıqdan sonra, habelə onun məhkumluğu ödənildikdən və ya götürüldükdən sonra cinayət məsuliyyətinə cəlb etmənin bütün hüquqi nəticələri aradan qalxır.

Cinayət məsuliyyətinin əsas məqsədi məhkumun islah edilməsidir. Cinayət hüququnun tənzimedici funksiyasına əsasən cinayət törədən şəxslər barəsində tənbehlə bağlı məcburi təsir tədbirləri tətbiq edilir. Cəza

tədbirləri bir daha qanununu pozmamaq, gələcəkdə yenidən cinayətlər törətməmək üçün tətbiq edilir. İkinci məqsəd cinayətkarların yenidən cinayət törədilməsinin qarşısını almaqdır (xüsusi xəbərdarlıq). Cinayət məsuliyyətinin üçüncü məqsədi antisosial davranışa meyilli olan şəxslər tərəfindən cinayətlərin qarşısının alınmasıdır (ümumi xəbərdarlıq). Bu məqsəd cinayət məsuliyyətinin qaçınılmazlığının təmin edilməsi və cinayət qanunu ilə təsir tədbirlərinin tətbiq edilməsi yolu ilə əldə edilir (3).

Cinayət məsuliyyətinin faktiki olaraq reallaşdırılması şəxslərin ibtidai istintaq mərhələsində müttəhim qismində cəlb edilməsi anından başlayır. Cinayət məsuliyyəti işə məhkəmə baxışı ittiham hökmünün çıxarılması mərhələsində davam edir, o həm də təyin olunmuş məhkəmə cəzasının real icrası mərhələsində də mövcud olur. Cinayət məsuliyyəti, cinayət hüquq münasibətlərinin aradan qaldırılmasının aşağıda göstərilmiş hallarında xitam olunur: Cəza müddətinin bitməsi, cinayət məsuliyyətindən azad etmə, amnistiya və yaxud əfv etmə haqqında akta görə.

Qeyd edək ki, tərbiyəvi və tibbi xarakterli məcburi tədbirlərin tətbiqi cinayət məsuliyyətinin məzmununa daxil deyildir. Dövlətin cinayət məsuliyyətinə cəlb etməkdən imtina etməsi iki əsasla – ümumi və xüsusi əsasla həyata keçirilir. Cinayət məsuliyyətindən azad etmənin ümumi əsasları CM-in 72, 73, 74, 75, 81-ci maddələrində, cinayət məsuliyyətindən azad etmənin xüsusi əsasları isə CM-in 144, 214, 234, 274, 312-ci və s. maddələrində təsbit edilmişdir (4, 107).

Cinayət məsuliyyətinin əsaslarının müəyyən edilməsinə qanunvericilik və cinayət hüquq nəzəriyyəsi iki aspektdən yanaşır: hüquqi və faktiki əsaslar. Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır. Buradan belə bir nəticə çıxır ki, cinayət məsuliyyətinin vacib və yeganə əsasları törədilmiş əməldə qanunda göstərilmiş cinayət tərkibinin mövcud olmasıdır.

Cinayət tərkibi – törədilmiş əməli konkret cinayət növü kimi xarakterizə edən əməllərin məcmusu, cinayət məsuliyyətinin zəruri əsasıdır. Şəxs cinayət məsuliyyətinə o zaman cəlb oluna bilər ki, onun hərəkətlərində müəyyən cinayət tərkibi olmuş olsun. Cinayət tərkibi dörd qrup əlamətlərdən ibarətdir ki, onlar cinayətin obyektini, onun obyektiv tərəfini, cinayətin subyektini və onun subyektiv tərəfini xarakterizə edir.

Cinayətin obyekti başlıca olaraq həmin maddənin CM-nin Xüsusi hissəsinin sistemində tutduğu yer ilə müəyyən edilir (mülkiyyət əleyhinə olan cinayətlər, ədalət mühakiməsi əleyhinə olan cinayətlər və s.). Cinayətin subyektinin ümumi əlamətləri – cinayət məsuliyyətini əmələ gətirən yaş, anlaqlıq – CM-nin Ümumi hissəsinin müvafiq maddələrində (CM-in 2, 3, 14, 20, 25, 26, 31-ci maddələri) nəzərdə tutulmuşdur, konkret cinayətin tərkibini ifadə edən dispozisiyada isə subyektin xüsusi əlamətləri göstərilir (məsələn, vəzifəli şəxs, müstəntiq, prokuror, hakim, şahid, zərərçəkmiş şəxs, ekspert). Cinayətin obyektiv tərəfini – hərəkətin (hərəkətsizliyin) özünü və onun nəticələrini, habelə cinayətin subyektiv tərəflərini (təqsirin forması, motivi, məqsədi) xarakterizə edən əlamətlər bu cinayəti nəzərdə tutan normanın dispozisiyasında göstərilir. Bu əlamətlərin birinin olmaması şəxsin hərəkətlərində bütövlükdə cinayət tərkibinin olmamasına sübutdur və həmin cinayət məsuliyyətinin aradan qaldırır. Cinayət hərəkəti sona çatdırıldıqda da (cinayətə hazırlıq və cinayətə qəsd), habelə iştirakçılıq zamanı da cinayət tərkibi olur. Cinayət etməkdən könüllü imtina cinayət tərkibini istisna edir.

Cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə görə cinayət tərkibləri fərqləndirilir: əsas tərkiblər; məsuliyyəti yüngülləşdirən halı nəzərdə tutan tərkiblər; məsuliyyəti ağırlaşdıran halı nəzərdə tutan tərkiblər; məsuliyyəti xüsusilə ağırlaşdıran halı nəzərdə tutan tərkiblər.

Əsas tərkiblər elə tərkiblərdir ki, belə tərkiblərdə məsuliyyəti ağırlaşdıran, yaxud da məsuliyyəti yüngülləşdirən halları xarakterizə edən tərkib əlamətləri nəzərdə tutulmur. Əmlakı oğurlama (CM 177.1-ci maddə), həmçinin qəsdən adam öldürmə (CM 120.1-ci maddə) cinayətlərini misal göstərmək olar. Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə (CM 122-ci maddə), zəruri müdafiə həddini aşmaqla adam öldürmə (CM 123-cü maddə) nəzərdə tutan tərkiblər məsuliyyəti yüngülləşdirən halı olan tərkiblərdir. Bu tərkiblərin hər birinin əsasında qəsdən adam öldürmənin tərkib əlamətləri (CM-in 120.1-ci maddəsi) – əsas tərkib durur.

Məsuliyyəti ağırlaşdıran halı olan tərkiblər də əsas tərkiblərin köməyi ilə yaradılır. Məsələn, qəsdən adam öldürmə cinayət tərkibinə – əsas tərkibə məsuliyyəti ağırlaşdıran bir sıra halları xarakterizə edən əlamətləri daxil etməklə CM-in 120.2-ci maddəsində nəzərdə tutulan məsuliyyəti ağırlaşdıran halı olan tərkiblər müəyyən edilmişdir.

Cinayətin elementlərinin səciyyələndirmə üsuluna görə, yaxud tərkib əlamətləri quruluşunun xarakterinə görə cinayət hüquq elmi cinayət tərkiblərinin üç növünü fərqləndirir: 1) sadə; 2) mürəkkəb; 3) alternativ.

Sadə cinayət tərkibləri bir obyektə qəsd edən konkret cinayət əməllərini səciyyələndirir Əmlaka ziyan vurma (CM 184-cü maddə), qəsdən adam öldürmə (CM 120.1-ci maddə) və s. bu kimi tərkiblər sadə tərkiblərə misal olaraq göstərmək olar.

Mürəkkəb cinayət tərkibləri iki obyekti, iki və ya daha artıq hərəkəti, bir-biri ilə bağlı olan nəticəni

nəzərdə tutur. Məsələn, Quldurluq (CM 181-ci maddə) cinayəti eyni vaxtda həm mülkiyyətə, həm də şəxsiyyətin həyat və ya sağlamlığının təhlükəsizliyi ilə bağlı münasibətlərə qəsd edir.

Alternativ cinayət tərkiblərini nəzərdə tutan normaların dispozisiyalarında eyni hüquqlu iki və ya daha artıq kriminal hərəkət göstərilir. Dispozisiyada göstərilən hərəkətlərdən birinin törədilməsi məsuliyyətin yaranması üçün əsas olur. Məsələn, CM-in 274-cü maddəsi dövlətə xəyanətə görə məsuliyyət müəyyən edir. Bu maddənin dispozisiyasında sadalanan hərəkətlər (hərəkətsizlik) alternativ xarakterlidir (6, 128-129).

Cinayətin obyektiv cəhətini xarakterizə edən, tərkibə daxil edilən əlamətlərin kombinasiyasına görə cinayət tərkiblərinin üç növü fərqləndirilir: 1) maddi tərkiblər; 2) formal tərkiblər; 3) kəsik tərkiblər.

Misal olaraq, maddi tərkiblərə CM-in 263-cü maddəsini, formal tərkiblərə CM-in 321.1-ci maddəsini, kəsik tərkiblərə isə CM-in 217-ci maddəsini göstərmək olar. Qeyd edək ki, əməllərin kriminallaşdırılması ilk növbədə onların ictimai təhlükəlilik əlamətinə əsaslanır. Buna əsasən də cinayətlərə görə məsuliyyət müəyyən edən tərkiblər hansı quruluşa (maddi, formal, kəsik) malik olmasından asılı olmayaraq, onların əsasında cinayətlərin maddi anlayışı durur.

Demək, cinayət məsuliyyətinin əsasına ancaq konkret əməldə hərəkət və ya hərəkətsizlikdə ifadə olunan cinayətkar davranış xidmət edə bilər. Şəxsiyyətin cəmiyyət əleyhinə olan baxışları, yaxud fikir və düşüncələri və digər mənəvi mənfi xassələri cinayət məsuliyyətinin əsasını təşkil edə bilməz. Cinayət qanunu (Cinayət Məcəlləsi) "əməl", "hərəkət", "fəaliyyət", "davranış" terminlərini xatırlatmaqla yanaşı, cinayətlərin insan fəaliyyətinin bütün növlərini onların mürəkkəbliyindən asılı olmayaraq təşkil etməsini də özündə ehtiva edir (5, 52).

Bu Məcəllə ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir (CM maddə 19). Yəni cinayət məsuliyyətinə cəlb etməyə imkan verən müəyyən yaş həddi olmalıdır. CM-nin 20.1-ci maddəsinə görə cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. CM-nin 20.2-ci maddəsinə əsasən on dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə (maddə 120), adam oğurlamağa (maddə 144), terrorçuluğa (maddə 214), adamları girov götürməyə (215) ağırlaşdırıcı hallarda xuliqanlığa (maddə 221.2 və 221.3) və s. cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilir.

Yuxarıda qeyd edilən maddənin məzmunundan belə nəticə çıxır ki, 14 yaşından 16 yaşına qədər yetkinlik yaşına çatmayanlar qəsdən törədilən cinayətlərə görə məsuliyyət daşıyırlar. Bununla belə, bir sıra cinayətlərə görə cinayət məsuliyyəti şəxsin yalnız 18 yaşına çatması ilə əmələ gəlir. Məsələn, hərbi xidmət keçməkdən boyun qaçırma (CM, maddə 321) və s.

Anlaqlılıq – şəxsin öz hərəkətlərini ölçüb-biçmək və onlara rəhbərlik etmək qabiliyyətinin olmamasında, yəni ictimai-təhlükəli əməli törətdiyi zaman xəstəlik vəziyyətində olmasında ifadə olunur. Cinayət Məcəllə-sinin 21-ci maddəsinin 1-ci hissəsinə əsasən ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəma-ğıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Qüvvədə olan cinayət qanunvericiliyi patoloji sərxoşluq istisna olmaqla, fizioloji sərxoşluq vəziyyətində cinayət törətmiş şəxsləri anlıqlı hesab edir. Cinayət Məcəlləsinin 23-cü maddəsinə əsasən, səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya digər güclü təsir edən maddələrdən istifa-də nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur. Demək, adi sərxoşluq vəziyyətində cinayət törətmiş şəxs (dərəcəsindən asılı olmayaraq) anlaqlı hesab olunduğuna görə, cinayət məsuliyyəti daşıyır.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi yalnız fiziki şəxsləri cinayətin subyekti kimi tanıyır. Hüququ şəxslər cinayətin subyekti hesab edilmirlər. Lakin Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə CM-ə 15-2-ci fəsli əlavə edilmişdir. Bu fəslin normalarında dairəsi konkret müəyyən olunan fiziki şəxslərin törətdikləri cinayətlərlə bağlılığı olan hüquqi şəxslər barəsində cinayət-hü-quqi tədbirlərin tətbiqi nəzərdə tutulmuşdur (6, 58).

Hazırda qüvvədə olan CM-də qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət-lilik və humanizm kimi prinsiplər təsbit edilmişdir (7). Bu o deməkdir ki, respublikamızda cinayət-hüquq yaradıcılığı və qanunun praktikada tətbiqi fəaliyyəti ancaq sözü gedən prinsiplərə söykənir. Bunun bariz nümunəsi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respubli-kası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında Cəza siyasətinin humanistləşdirilməsi və cinayət-lərin dekriminallaşdırılması məsələsinin xüsusi yer almasıdır. Fərmanın başlıca məqsədi məhkəmə təcrübə-sinin stabilləşdirilməsi, məhkəmə aparatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması, məhkəmə icraatının və məhkəməyə müraciət qaydalarının təkmilləşdirilməsi sahəsində islahatları genişləndirməkdir. Fərmanda həmçinin cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə müvafiq qanun layihələrini hazırlanması nəzərdə tutulmuşdur (8).

Xüsusi olaraq qeyd edək ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən hər hansı bir cinayət əməli qanunun müvafiq maddəsi ilə cəzalandırılır. Bununla yanaşı, əməlin ictimai təhlükəlilik dərəcəsi də fərqləndirilir. Törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması təqdirəlayiqdir. Həmçinin cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi daha münasibdir.

Böyük ictimai təhlükə törətməyən cinayətlər və az ağır cinayətlərə görə sanksiyaların yumşaldılması, əsasən mülkiyyət və iqtisadi fəaliyyət sahəsi ilə bağlı bəzi cinayətlərin dekriminallaşdırılması məqsədəmüvafiqdir. Eyni zamanda azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi təqdirəlayiqdir.

## Nəticə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində mövcud olan cinayət tərkibinin bütün əlamətlərini özündə əks etdirən əməlin törədilməsi cinayət məsuliyyətinin əsasıdır. Qanunverici cinayət-hüquqi norma adlandırılmış əsas problemini qəti olaraq həll edib. Orada birbaşa qeyd edilir ki, şəxsin əməlində bu Məcəllədə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətləri olduğu halda cinayət məsuliyyətinə cəlb olunur. Deməli, cinayət tərkibinin bütün əlamətlərini özündə əks etdirməyən və ya Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş tərkibin heç bir əlamətini ehtiva etməyən əməl onu törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsas ola bilməz. Əgər bu, baş verirsə, bununla da Cinayət Məcəlləsinin və cinayət məsuliyyətinin prinsipləri pozulur: qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 3-cü maddəsinə uyğun olaraq: cinayət məsuliyyəti insanın fikrinə, əqidəsinə və psixi vəziyyətinə görə deyil, ancaq ictimai-təhlükəli əmələ görə, başqa sözlə, insanın zahiri aləmdə təzahür edən iradi davranış aktına görə yaranır; ictimai-təhlükəli əməli törətməkdə təqsirli olan şəxs cinayət məsuliyyətinə alınır, cəzalandırılır; cinayət məsuliyyəti insanın ancaq cinayət qanununda nəzərdə tutulan əməli törətməsinə görə yaranır; törədilən cinayətə görə şəxsin əməlinin, habelə şəxsiyyətinin mühakimə edilməsi və cəzanın tətbiqi ancaq dövlət adından məhkəmənin hökmü ilə təsbit edilir.

## Ədəbiyyat


1. Уголовное право. Общая часть: Учебник / Н.А.Бабий, А.В.Барков, И.О.Грунтов и др.; Под Ред. В.М.Хомича, – Мн.: Тесей, 2002, 496 с.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: “Hüquq Yayın Evi”, 2019, 116 s.
3. Артемова В.Н., С.А.Балашенко, А.В.Барков и др. Основы права: Учебник/Под редакцией Г.Б.Шишко, 2006, 416 с.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: “Hüquq Yayın Evi” nəşriyyatı, 2018, 724 s.
5. Qurbanov H. Əməlin cinayət olmasını istisna edən hallar (müasir və gələcəyə baxış kontekstində). Bakı: “Təhsil”, 2014, 176 s.
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. I hissə, Bakı, “Hüquq yayın Evi”, 2018-ci il, 704 s.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: “Hüquq yayın Evi”, 2017, 756 s.
8. president.az›articles//Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi... Azərbaycan Respublikası Prezidentinin Fərmanı ... Bakı şəhəri, 3 aprel 2019-cu il.


## Leqal basis of criminal liability


**Summary**

It is clear from the article that the basis of criminal liability is the Commission of an act that reflects all the characteristics of a crime provided for by the Criminal code of the Republic of Azerbaijan. Criminal liability exists and is carried out only within the framework of criminal law relations.

The article deals with the basics of criminal responsibility, in particular, the concept of criminal responsibility, its basics – mainly the composition of the crime, the principles of criminal responsibility, research and application. The article analyzes the basics of criminal liability, which is the most seriously and merchant form of legal liability, and discusses the purpose, characteristics and types of criminal liability.

**Правовые основы уголовной ответственности**

**Резюме**

Из статьи ясно, что основанием уголовной ответственности является совершение деяния, отражающего все признаки преступления, предусмотренного Уголовным кодексом Азербайджанской Республики. Уголовная ответственность существует и осуществляется только в рамках уголовно-правовых отношений.

В статье рассматриваются основы уголовной ответственности, в частности, понятие уголовной ответственности, ее основы – в основном состав преступления, принципы уголовной ответственности, исследования и применения. В статье анализируются основы уголовной ответственности, которая является наиболее строгим и жестким  формой юридической ответственности, а также обсуждаются цель, характеристики и  виды уголовной ответственности.